*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır     30 may 2020-ci il  № 32 (2450)     Qiymәti 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan Xalq Cümhuriyyəti qürur mənbəyimizdir

*Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin mayın 28-də açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı görüşdə çıxış edib.*



- Bu gün biz Respublika Gününü qeyd edirik. Sizi və bütün Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edirəm. Bu bayram günündə məcburi köçkünlər üçün salınmış "Qobu 3" yaşayış kompleksinin açılışını qeyd edirik. Burada bütün şərait yaradılıb. İndi mən şəraitlə tanış oldum, ən yüksək səviyyədə işlər görülüb. "Qobu Park-3" bu qəsəbədə salınmış üçüncü böyük yaşayış kompleksidir. "Qobu Park-3" kompleksində 1336 məcburi köçkün ailəsi yerləşəcək. 960 şagirdlik məktəb, - özü də çox gözəl məktəbdir, - fəaliyyət göstərəcək və böyük uşaq bağçası artıq tikilib, istifadəyə hazırdır. Bütövlükdə Qobu qəsəbəsində 3 layihədə toplam 3700-ə yaxın məcburi köçkün ailəsi yerləşdiriləcəkdir.

"Qobu-1" və "Qobu-2" layihəsi artıq 2018-ci və 2019-cu illərdə istifadəyə verilib. Bildirməliyəm ki, bu şəhərciklərin tikintisinin təşəbbüskarı Mehriban xanım olub və 2017-ci ildə onun iştirakı ilə burada təməl daşı qoyulub. O vaxt bura boş ərazi idi, heç nə yox idi və demək olar ki, 3 il ərzində ardıcıllıqla burada gözəl bir şəhər yaradılıb. Çünki bu 3 şəhərcikdə toplam 20 minə yaxın insan yaşayacaq və bu, bir daha onu göstərir ki, əgər iradə varsa, əgər siyasət düzgün aparılırsa və əgər insanların ürəyində ən ülvi hisslər reallıqda öz əksini taparsa, istənilən təşəbbüs, istənilən gözəl ideya həyata keçər. Beləliklə, boş bir ərazidə böyük infrastruktur layihələri icra edildi. Çünki bütün bu binaların kommunikasiyaları, təchizatı ən yüksək səviyyədə təşkil edildi - su, qaz, elektrik enerjisi, daxili yollar, nəqliyyat məsələləri öz həllini tapdı. Burada, eyni zamanda, tibb məntəqəsi, ticarət yerləri, iş yerləri yaradılıb, - bu da nəzərə alınıb, - çünki burada yaşayacaq vətəndaşlar artıq burada işlə də təmin ediləcək. Xüsusilə qadınlar üçün burada xalçaçılıq emalatxanası fəaliyyət göstərəcək və digər istehsalyönümlü kiçik müəssisələr artıq fəaliyyətə hazırdır. Nəzərə alsaq ki, burada yaşayacaq insanlar uzun illər çox ağır vəziyyətdə yaşayıblar, - bugünkü təqdimatda onların indiki yaşayış yeri göstərilir, - əlbəttə ki, bu, ailələrə böyük sevinc bəxş edəcək.

Bu qəsəbənin xüsusiyyəti ondan ibarətdir ki, burada bütün işlər özəl sektor tərəfindən görülmüşdür. Bu da çox sevindirici haldır. Şadam ki, mənim bir neçə il bundan əvvəlki çağırışımdan sonra özəl sektor artıq bu önəmli sosial layihələrə də qoşuldu. O vaxt mən özəl sektoru bu işlərə dəvət etmişdim və şadam ki, mənim çağırışım cavabsız qalmayıb. Bütün tikinti işləri, bütün investisiyalar özəl sektor tərəfindən təmin edilibdir. Burada xüsusilə Paşa Holdinq şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bu şirkət çoxşaxəli fəaliyyətlə məşğuldur. Bu şirkətin bütün dövrlərdə sosialyönümlü layihələri təqdirəlayiqdir. Onu da bildirməliyəm ki, heç bir reklam etmədən, necə deyərlər, özünü tərifləmədən bu işləri ardıcıl şəkildə görür. Bu gün koronavirus şəraitində Paşa Holdinq şirkəti və digər özəl şirkətlər ehtiyacı olan insanların yanındadırlar. Bu böyük tikinti layihəsi bir daha onu göstərir ki, biznesin sosial məsuliyyəti artır. Şadam ki, bu təşəbbüsə digər özəl şirkətlər qoşuldu və bu yaxınlıqda digər şirkətlər tərəfindən iki bina tikilir. Ümid edirəm ki, bizim başqa şirkətlərimiz də bu işə qoşulacaqlar. Çünki Azərbaycanda bir çox böyük şirkətlər, holdinqlər var. Onlar Azərbaycanda pul qazanırlar, ölkəmizdə hökm sürən sabitlikdən, biznesə göstərilən dəstəkdən faydalanırlar. Əlbəttə ki, onların sosial məsuliyyəti də lazımi səviyyədə olmalıdır. Ona görə bu yaşayış komplekslərinin tikintisi rəmzi xarakter daşıyır. Birinci növbədə dövlət öz iradəsini ortaya qoyur. Bildiyiniz kimi, məcburi köçkünlərin problemlərinin həlli Prezident kimi mənim ən başlıca vəzifələrimdən biridir. Digər tərəfdən, özəl sektor artıq sosial məsuliyyət göstərərək belə gözəl imkanlar yaradır. Nəzərə alsaq ki, ümumiyyətlə Azərbaycanda 300 mindən çox məcburi köçkün bu günə qədər mənzillərlə, fərdi evlərlə təmin olunub və onlardan təqribən 20 mini bir şirkət tərəfindən görülmüş işlər nəticəsində evlərlə təmin edilir.

Məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapır. Bildiyiniz kimi, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində mənim proqramımın tərkib hissəsi məhz bu məsələ idi. Söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və nəinki 5 il, 4 il ərzində biz buna nail olduq. Çox böyük uğur idi. Çünki ölkəmizin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, eyni zamanda, uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayırdılar. Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıb. Son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürür. Son 4-5 il ərzində neftin qiymətinin bir neçə dəfə kəskin düşməsinin şahidi olmuşuq. Buna baxmayaraq, məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur. Keçən il məcburi köçkünlər üçün rekord sayda evlər-mənzillər tikildi - 5 minə yaxın. Bu il qarşıya hədəf qoyulub ki, 7 min, bəlkə də 8 min məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin edilsin. Əgər biz buna nail olsaq, bir il ərzində həm Bakı şəhərində, Sumqayıt şəhərində və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin İnvestisiya Proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq.

Eyni zamanda, məcburi köçkünlərin sosial təminatı yaxşılaşır. Keçən il köçkünlərə verilən müavinətin həcmi 50 faiz artmışdır. Hər bir məcburi köçkün uzun illər ərzində dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Əlbəttə, indi dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır və bu ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar geniş vüsət alır, yeni köçkün şəhərcikləri salınır. Ancaq hesab edirəm ki, Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyibləр. Çünki biz köçkünləri belə gözəl evlərlə təmin edirik. Evlərin həm quruluşu, həm daxili dizaynı, təchizatı göz oxşayır. Azərbaycan bu sahədə də qabaqcıl yerlərdədir və hesab edirəm ki, bu, bizim borcumuzdur, bunu biz edirik və edəcəyik.

Ancaq onu da bilməliyik və bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq. Ermənilər tərəfindən dağıdılmış və məhv edilmiş milli irsimiz sənədləşdirilib. Biz öz tarixi keçmişimizi yaxşı bilirik və yaxşı bilirik ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. İşğal olunmuş torpaqlar azad ediləndən sonra bütün binalar yenidən qurulacaq, o cümlədən dağılmış tarixi abidələrin mövcudluğunu əks etdirən əməli memarlıq tədbirlərinin görülməsi də nəzərdə tutulur.

**(Ardı 3-cü səhifədə)**

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

*Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoydu.*



Yüz iki il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May - Respublika Gününü bu il də milli bayram kimi qeyd edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Respublika Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir: "Bütün Azərbaycan xalqını 28 May - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına möhkəm cansağlığı, sevinc, sevgi və səadət arzulayıram! Qoy müstəqilliyimiz əbədi olsun! Uca Tanrı doğma Azərbaycanımızı qorusun!"

## Təlimlərdə Azərbaycan Ordusu döyüş təcrübəsini artırıb

*Qoşunların 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimləri başa çatıb.*

Təlimlərdə əsas diqqət şəxsi heyətin və hərbi idarəetmə orqanlarının peşəkarlıq səviyyəsinin artırılmasına, döyüş texnikasının və digər hərbi vasitələrin praktiki istifadəsinə yönəldilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim rəhbərliyinin qiymətləndirməsinə görə başa çatmış təlimlərdə qoşunlar qarşıya qoyulan məqsədlərə tam nail olub. Şəxsi heyət döyüş əməliyyatlarının aparılması üzrə praktiki təcrübə və vərdişlər əldə edib, eləcə də səhra şəraitində real olaraq yüksək bacarıq nümayiş etdirib.

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi başa çatıb

*Naxçıvan Qarnizonu Qoşunlarında ərazidə keçirilən iki tərəfli komanda-qərargah təlimi başa çatıb.*





Təlimin planına əsasən, qərargahlarla ərazinin müxtəlif istiqamətlərində döyüş tapşırıqları dəqiqləşdirilərək birləşmə və hissələr arasında maket üzərində qarşılıqlı əlaqə təşkil edilib.

Təlimin vahid taktiki şəraiti fonunda 12 motoatıcı və mexanikləşdirilmiş bölük, 18 artilleriya və minaatan batareyası ilə döyüş atışlı taktiki təlim keçirilib. Bölmələr tərəfindən taktiki fəaliyyətlər və döyüş atışları icra edilib.

Komanda-qərargah təliminin sonuncu mərhələsində Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində birləşmə və hissələrin fəaliyyəti, qərarların və hesablamaların reallığı kompüter dəstəkli təlimdə qiymətləndirilib.

Təlimin sonunda fəaliyyətlərin təhlili aparılan zaman komandir və qərargahların döyüşün planlaşdırılması üzrə idarəetmə vərdişlərinin təkmilləşdirildiyi, qarşıya qoyulmuş məqsədlərə nail olunduğu bildirilib, aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində isə müvafiq tapşırıqlar verilib.

**Baş leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan Xalq Cümhuriyyəti qürur mənbəyimizdir

(Əvvəli 1-ci səhifədə)

Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bunu deməyə əsas verən bir çox amillər var - bizim hərbi gücümüz və biz bunu göstərmişik. 2016-cı və 2018-ci illərdə uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpaq işğalçılardan azad edildi. Cocuq Mərcanlı kəndinin timsalında biz görürük ki, işğaldan azad olunacaq digər torpaqlarda hansı işlər görüləcək və hansı sürətlə görüləcəkdir. Biz Cocuq Mərcanlını uğurlu hərbi qələbədən sonra cəmi bir il ərzində yenidən qurduq və indi orada həyat qaynayır, köçkünlər öz doğma torpağına qayıdıblar. Bəzən belə fikirlər səsləndirilir ki, bəzi köçkünlər torpaqlar işğaldan azad olunandan sonra qayıtmaya bilərlər. Amma mən tam əminəm ki, bütün köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar, necə ki, Cəbrayıl köçkünləri. Onlar uzun illər başqa yerlərdə yaşayıblar, o cümlədən Bakı şəhərində. Ancaq imkan olan kimi onlar hətta növbəyə durmuşdular ki, tezliklə öz doğma torpağına qayıtsınlar. Eyni zamanda, işğaldan azad olunan Şıxarx qəsəbəsi. İndi orada da böyük şəhərcik salınıb. O, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən Azərbaycanın tarixi məkanıdır, işğaldan azad olunan ərazidə böyük şəhərcik salınıb. Biz bu gün işğal altında olan bütün digər torpaqlarda da bərpa işləri görəcəyik. Azərbaycan öz suverenliyini təmin edəcəkdir.

Yenə də deyirəm, hərbi güc, bizim beynəlxalq mövqelərimiz, beynəlxalq təşkilatların münaqişə ilə bağlı sərgilədiyi mövqe. Xüsusilə son illər ərzində demək olar ki, bütün beynəlxalq təşkilatlar ölkəmizin ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir, dünyanın bütün aparıcı ölkələri, həmçinin. Bu yaxınlarda Dağlıq Qarabağda keçirilmiş qondarma "prezident seçkiləri" bunu bir daha göstərdi. O saxta prezidenti, dırnaqarası prezidenti heç kim tanımadı. Dünyanın aparıcı ölkələri açıq formada bəyanat verdilər. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya, ondan sonra Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər təşkilatlar bəyanat verdilər ki, bu seçkilər tanınmır, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Ona görə beynəlxalq hüquq, hərbi qüdrətimiz, eyni zamanda, iqtisadi üstünlüyümüz, əlbəttə ki, torpaqlarımızın azad olunmasında əsas rol oynayacaqdır. Danışıqlar öz yerində, ancaq indi dünyada siz də yaxşı görürsünüz ki, güc amili ön plana çıxır, bəzi ölkələr, hətta böyük demokratik ənənələri olan ölkələr də bəzi hallarda beynəlxalq hüquqa məhəl qoymadan öz maraqlarını təmin edirlər. Nəyin hesabına? Gücün hesabına. Ona görə ordu quruculuğu mənim Prezident kimi fəaliyyətimdə həmişə ön plandadır. Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Əlbəttə ki, sadaladığım bütün bu müsbət amillər, eyni zamanda, demoqrafik vəziyyət bizim üstünlüyümüz bundan sonra da təmin edəcək. Dağlıq Qarabağ probleminin həlli tarixi məsələdir və biz bu məsələni birdəfəlik və tam həll etməliyik. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır. Bu gün müzakirə edilən və danışıqlar masasında olan məhz mərhələli həldir. Baxmayaraq ki, Ermənistanın rəhbərliyi öz rəsmi populist çıxışlarında bunu inkar etməyə çalışır, ancaq mahiyyət etibarilə danışıqlar çərçivəsində həmin bu mərhələli həll məsələsi müzakirə edilir. Burada da riyakarlıq edir, öz xalqını aldadır, vasitəçiləri aldatmaq istəyir. Mərhələli həldən başqa heç bir həll mümkün deyil, o da nə deməkdir? Birinci mərhələdə torpaqların bir hissəsi işğaldan azad olunur. Bundan başqa variant ola bilməz. Amma mənim dediyim söz odur ki, bu, ancaq mərhələli yanaşma ola bilər. Bizim məqsədimiz, əsas amalımız suverenliyimizi tam və birdəfəlik təmin etməkdir və biz bunu edəcəyik. Heç kimdə şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq, məsələnin həlli üçün vaxtı və geosiyasi vəziyyəti düzgün qiymətləndirməliyik. Mənim fikrim budur və bilirəm ki, Azərbaycan xalqı mənim mövqeyimi dəstəkləyir. Mən bunu dəfələrlə bildirmişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Ancaq yenə də bu məsələ ilə məşğul olanda hər zaman mən keçmişə qayıdıram, tarixə qayıdıram və sual verirəm. Nə üçün torpaqlarımız işğal altına düşdü? Necə oldu ki, biz bu torpaqları qoruya bilmədik? Necə oldu ki, ermənilər xarici dəstəyin hesabına torpaqları işğal etdilər, insanları öz doğma torpaqlarından didərgin saldılar? Mən bu suallara cavabı bilirəm və Azərbaycan xalqı da bilir. Amma yenə də həmişə fikirləşirəm ki, əgər o vaxt Azərbaycanın başında Heydər Əliyev olsaydı, heç vaxt bir qarış torpaq da düşmən tərəfindən işğal edilə bilməzdi. Çünki onun dövründə Azərbaycan hakimiyyəti Dağlıq Qarabağda elə bir möhkəm iradəyə sahib idi ki, bir nəfər erməni də səsini çıxara bilmirdi. Düzdür, Moskvaya, Siyasi Büroya donoslar yazırdılar ki, guya onları orada incidirlər və yaxud da onlar diskriminasiyaya uğrayırlar. Hamısı yalan idi. Çünki iqtisadi göstəricilər var, onlar göstərir ki, Dağlıq Qarabağda yaşayan insanlar heç də Azərbaycanın o biri torpaqlarında, rayonlarda yaşayan insanlardan pis yaşamayıblar. Ancaq Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti imkan vermirdi ki, orada bir dənə də olsun hadisə baş versin. Ondan əvvəl - 1960-cı illərdə hadisələr baş verib. Ancaq Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayandan sonra və Bakıdan Moskvaya gedənə qədər orada heç bir hadisə olmayıb. Mən şəxsən atamla birlikdə Dağlıq Qarabağda olmuşam, Xankəndidə, Şuşada. Mən o ab-havanı görmüşəm, 1980-ci illərin əvvəllərində həm qış aylarında, - o məşhur fotolar, videolar var, - həm də yaz aylarında. Orada - həm Xankəndidə, həm də başqa yerlərdə heç bir problem yox idi.

Mənim gözümün qabağında ermənilər Heydər Əliyevin qarşısında fərəqət durmuşdular, onu salamlayırdılar. Orada Azərbaycan dilində poeziya günü keçirilmişdir. Erməni, Azərbaycan şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Heydər Əliyevin qətiyyəti, iradəsi, cəsarəti, müdrikliyi imkan vermirdi ki, bir dənə də erməni baş qaldırsın. Şuşada olan zaman o qədim Azərbaycan şəhərinin tarixini görərkən biz bir daha görürdük ki, bizim nə qədər böyük tarixi irsimiz var. Yadımdadır, Ulu Öndər ev-muzeyləri, Üzeyir Hacıbəylinin ev-muzeyi haqqında və digər göstərişlər vermişdi ki, Azərbaycan mədəniyyəti orada daim yaşasın. Ermənilər və burada yerli satqınlar Heydər Əliyev Moskvada işləyəndə donoslar, anonim məktublar yazırdılar. Aydın məsələdir ki, Heydər Əliyev amili qoymurdu ki, ermənilər baş qaldırsınlar. Buradakı satqınlar, xainlər, Azərbaycan millətinin düşmənləri donos yazırdılar. İndikilər də yazırlar. O vaxt Siyasi Büroya yazırdılar. Bunlar isə bizdən Qərb ölkələrinə donos yazırlar. İndiki milli satqınlar dediyim o cinayətkar ünsür dəstəsi o vaxtın donos yazanlarından fərqlənmirlər. Onlar da özlərinə başqa ölkədə himayədar axtarırdılar, bunlar da. Onların da, bunların da əsas məqsədi hakimiyyətdir, nəyin bahasına olursa-olsun. Bax, buna görə torpaqlar işğal altına düşüb. Baxın, Heydər Əliyev Siyasi Bürodan, Sovet İttifaqının Nazirlər Sovetindən yüksək vəzifələrdən gedəndən sonra iki həftə keçməmiş nə baş verdi? Bir erməni millətçisi məqalə ilə çıxış etdi ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir. Özü də harada? Fransa qəzetində. Artıq erməni diasporu bu işlərə qoşulmuşdu. Sovet İttifaqının başında dayanan adamlar da öz ermənipərəst mövqeyi ilə fərqlənmişlər. Biz bunu yaxşı bilirik və artıq hərəkət başladı. O vaxt Azərbaycan hakimiyyəti nə etdi? 1987-ci ilin noyabrı idi. Heydər Əliyev vəzifədən gedəndən sonra cəmi iki həftə keçmişdi. Buradakılar neylədilər? Heç nə. Veclərinə də almadılar. Onlar elə bil ki, bu torpağın övladları deyildilər. Biganə qaldılar, reaksiya vermədilər. Vəziyyəti nəzarət altında saxlaya bilmədilər və nəticə etibarilə, çox da keçmədi, təxribat törədildi. Bu tarixə bu nöqteyi-nəzərdən baxın. Cəmi 3-4 ay keçdi, 1988-ci ilin fevral ayında Sumqayıt təxribatı törədildi. Nə idi o təxribat. Erməni quldurları orada dəstə yaradıb bir neçə erməni öldürüb bunu Azərbaycan xalqının ayağına yazdılar. Bu da tarixi faktlardır.

İstintaqı biz aparmamışıq. İstintaqı Moskvadan gələn istintaq qrupu aparırdı. Orada bilindi ki, bu dəstənin başında dayanan ermənidir. Onun təcavüz etdiyi şahidlər üzünə demişdilər, o kadrlar var. Onun qətlə yetirdiyi insanların qohumları, yaxınları demişdilər ki, bizi öldürən budur. Baxın, sonra nə olur? Bu adam həbs olunur, ona hökm verilir. Bir ildən sonra o cəza çəkmək üçün Ermənistana göndərilir. Ermənistanda nə edirlər? Onu buraxırlar. Yaxşı, bu adam erməniləri öldürüb, bu da təsdiq olunub, istintaq materialları var. Nə üçün siz onu buraxırsınız? Deməli, bu, bəri başdan qurulmuş təxribat idi. Bu təxribatı ermənilər törədiblər, sonra yıxıblar Azərbaycan xalqının üstünə. Bu da onlara fürsət verib ki, Dağlıq Qarabağ məsələsini qaldırsınlar. Bax, budur tarix. Azərbaycan hakimiyyəti nə edib? Heç nə. O vaxt Azərbaycanın başında duran adam bilmirdi ki, Moskvanın o çinovniklərinin dabanını necə yalasın. Budur milli rəzalət. Sovet İttifaqı dağılandan sonra bir neçə ay keçmədi, dərhal Xocalı soyqırımı törədildi. Azərbaycan hakimiyyəti öz vətəndaşlarını qoruya bilmədi. Xalqımıza qarşı qanlı cinayət, soyqırımı törədildi. Ondan bir neçə ay sonra - 1992-ci ilin may ayında Şuşa və Laçın işğal olundu. Kimdir günahkar? Azərbaycan Xalq Cəbhəsi. Bir nömrəli günahkar odur. Əlbəttə, o vaxtkı hakimiyyətin də günahı var. Çünki öz şəhərlərimizi qoruya bilmədi. Ancaq Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəlmək üçün xəyanət etmişdi. Şuşanın guya müdafiəsini təşkil edən adamlar satqınlıq edib, xəyanət edib, qaçıb gizlənmişdilər. Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Az kontingentlə oranı illərlə müdafiə etmək olar, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Belə də oldu. Sonra Laçını da satdılar. Hakimiyyətə gəldilər. Onların əsas məqsədi hakimiyyətə gəlmək və olan-qalan sərvətləri talamaq idi.

Azərbaycan Xalq Cəbhəsinin cinayətkar əməlləri bununla bitmir. Ondan sonra onların yarıtmaz fəaliyyəti nəticəsində Kəlbəcər işğal olundu. Müdafiəni düzgün qura bilməmişdilər. Kim quracaqdı müdafiəni? Kim məşğul idi müdafiə ilə? Hərbi işdən heç bir xəbəri olmayan savadsız və xəyanətkar adamlar. Kim idi dövlətin başında? Xalq arasında heç bir hörməti olmayan boşboğaz. Kim gətirdi saldı bizim xalqımızı bu bəlaya? Onlar. O vaxt Heydər Əliyev olsaydı, qoyardımı ki, belə vəziyyət yaransın? Ona görə biz bunu bilməliyik. Kəlbəcər əldən gedəndən sonra neylədilər? Vəziyyəti bərpa etmək əvəzinə başladılar öz ordumuza qarşı mübarizəyə. Burada torpaqlar əldən gedir, onlar isə Gəncəni bombalayırdılar. Kəlbəcər, Laçın, Şuşa rayonları işğal olunandan sonra Dağlıq Qarabağla Ermənistan arasında bağlantı yarandı. Onlar isə Gəncəni bombalayırlar. Kim edib onu? Azərbaycan Xalq Cəbhəsi. Bu gün elə orada-burada fırlananlar da bu işdə əli olan cinayətkarlardır. Xalq da buna dözmədi, bunları süpürdü birdəfəlik atdı. Məhz ondan sonra Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi və vəziyyət sabitləşdi.

Budur səbəbkarlar, budur tarixi həqiqətlər. Bu gün vəziyyəti düzəltmək, torpaqları işğaldan azad etmək üçün nə qədər böyük səylər göstərilir. Ancaq Aprel döyüşləri və uğurlu Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər.

Bu gün Respublika Günüdür. Əlbəttə ki, Azərbaycan Xalq Cümhuriyyəti qürur mənbəyimizdir. Hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk respublika məhz Azərbaycanda yarandı, Azərbaycan xalqı bunun təşəbbüskarı olub. Eyni zamanda, biz bu gün də tarixdən ibrət götürməliyik. Nə üçün Respublika iki ildən də az yaşadı? Nə üçün süqut etdi? Nə üçün müstəqilliyi qoruya bilmədi? Bu suallardır. Biz düzgün nəticə çıxarmaq üçün tarixi bilməliyik. Burada heç bir mifologiyadan söhbət gedə bilməz. Hansısa hadisələri şişirtməklə biz özümüzü aldatmamalıyıq. Nə üçün? Çünki o hadisələr təkrarlanmasın. Nə üçün? Çünki müstəqilliyimiz əbədi olsun. Azərbaycan Xalq Cümhuriyyəti rus imperiyasının dağılması nəticəsində yaranmışdır. Ancaq cəmi iki ilə yaxın yaşadı. Çox önəmli addımlar atılmışdır. Müstəqillik elan olundu, dövlət atributları təsis edildi. Milli Ordu, Bakı Dövlət Universiteti yaradıldı, mütərəqqi qanunlar qəbul edildi. Amma, eyni zamanda, biz bilməliyik ki, o müstəqillik şərti xarakter daşıyırdı. Bakıda söz sahibi xarici generallar idi və Azərbaycan Xalq Cümhuriyyəti öz addımlarını, hətta dövlət atributları ilə bağlı planlarını gərək onlarla razılaşdıraydı. Respublika Azərbaycan ərazisinə tam nəzarət etmirdi. Əlbəttə ki, biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı, bizim qədim şəhərimizi Ermənistana vermək idi. Bunu heç cür əsaslandırmaq və heç vaxt bağışlamaq olmaz. Ona görə biz bu həqiqətləri bilməliyik və gənc nəsil də bilməlidir. Biz tarixi olduğu kimi yazmalıyıq və bilməliyik. Həqiqəti bilməliyik ki, bu, təkrarlanmasın. Xalq Cümhuriyyəti cəmi iki ilə yaxın yaşadı, müstəqilliyi qoruya bilmədilər. Azərbaycanın başında duranların bir çoxu ölkəni tərk etdi, müstəqillik əldən getdi. Bilirsiniz, gözəl şüarlar demək olar. Amma bu şüarların arxasında gərək iradə, güc və əməl olsun.

Bizim 1920-ci ildə endirilən üçrəngli bayrağımızı 70 il sonra Heydər Əliyev Naxçıvanda yenidən qaldırdı. Gücün varsa, bayraq həmişə yüksəklərdə olacaq. O vaxt Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı rəsmi bayraq kimi qəbul edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, onlar da eyni addımı atsınlar. Etmədilər. Çünki qorxurdular. O vaxt hələ Sovet İttifaqı dağılmamışdı. Qorxurdular ki, Moskvadan bunları tənbeh edəcəklər. Ona görə bu tarixi gün həmişə həm qürur mənbəyimiz olmalıdır, həm də daim yadda saxlamalıyıq ki, biz müstəqilliyi əbədi, dönməz etməliyik. Bunu kim etməlidir? Biz - Azərbaycan xalqı, Azərbaycan hakimiyyəti. Ona görə ölkəmizin gücləndirilməsi, mövqelərimizin möhkəmləndirilməsi, ölkəmizdə aparılan islahatlar iqtisadi, sosial sahədə, milli dəyərlərlə bağlı olan tədbirlərimiz, gənclərin milli ruhda tərbiyə olunması bu məqsədi güdür ki, bundan sonra Azərbaycan heç vaxt müstəmləkə olmasın, həmişə qürurlu, həmişə möhkəm ayaqda dayanan, müstəqil dövlət olsun və xalqımız həmişə azad olsun.

Bir daha sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Bu gözəl bayram münasibətilə bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri Baş Klinik Hospitalın yeni korpusunun açılışında iştirak edib




Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Ordusunun şəxsi heyətinin xidməti, sosial-məişət şəraitinin yaxşılaşdırılması, sağlamlığının qorunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, hərbi hissələrin maddi-texniki bazası gücləndirilir, müasir standartlara cavab verən hərbi infrastruktur yaradılır.

Hərbi tibb müəssisələrində həyata keçirilən tikinti-quruculuq işlərinin davamı kimi Silahlı Qüvvələrin Baş Klinik Hospitalının üçüncü müalicə korpusunun açılış mərasimi keçirilib.

Tədbirdə iştirak edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti istifadəyə verilən müalicə korpusunda yaradılan şəraitlə tanış olublar.

Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev Müdafiə nazirinə məruzə edib ki, üç mərtəbədən və bir zirzəmidən ibarət müalicə korpusunun ümumi sahəsi



4000 kvadratmetrdir. Burada stomatoloji və oftalmoloji kabinetlər, manipulyasiya, qan götürmə, reanimasiya, növbətçi həkim, oksigen, dezinfeksiya, sterilizasiya, eləcə də digər xidməti və inzibati otaqlar, laboratoriya, yeməkxana, qazanxana, camaşırxana və müalicə alanların reabilitasiyası üçün nəzərdə tutulmuş idman zalı mövcuddur.

Bildirilib ki, dünyanın qabaqcıl ölkələrində istehsal olunan tibbi avadanlıqlarla təchiz edilən şöbədə hərbi qulluqçuların müalicəsi üçün hər cür şərait yaradılıb.

Müalicə korpusunda yaradılan şəraitlə tanış olduqdan sonra Müdafiə naziri Tibb Baş İdarəsinin rəhbərliyi qarşısında tibb xidmətinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## "Ermənistanın Dağlıq Qarabağda saxta "seçkilər" keçirməsi təxribatdır"

*Türkiyə və Azərbaycan ortaq məsələlərdə birlikdə hərəkət edirlər. Saxta "erməni məsələsində" də fəaliyyətimiz ortaqdır. Açıq şəkildə deyirik ki, bir millətin iki diasporu olmaz.*

AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Alanyada fəaliyyət göstərən "DİM" TV-nin efirində azərbaycanlı jurnalist Elşad Eyvazlının Ermənistanın işğal etdiyi Şuşa şəhərində son təxribatı ilə bağlı sualına cavabında bildirib.

Mövlud Çavuşoğlu ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" ifadəsini xatırladaraq bildirib ki, Türkiyə Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi üçün böyük səylər göstərir. Ermənistanın Dağlıq Qarabağda saxta "seçkilər" keçirməsini təxribat adlandıran nazir diqqətə çatdırıb ki, Türkiyə başda olmaqla heç bir dövlət və beynəlxalq təşkilat sözügedən "seçkiləri" tanımır. Türkiyə tarixin bütün dövrlərində olduğu kimi bundan sonra da Azərbaycanın yanında olacaq.

Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" ifadəsi ilə fikirlərini davam etdirən nazir iki qardaş ölkənin liderliyi ilə həyata keçirilən beynəlxalq iqtisadi layihələrdən bəhs edərək diqqətə çatdırıb ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və digər layihələr iki qardaş ölkənin regiondakı gücünü dəfələrlə artırıb.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*29 may 2020-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli və Yusifcanlı, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Əlahiddə Ümumqoşun Orduda təmir-tikinti işləri davam edir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qayğısı ilə hərbi qulluqçuların xidməti və mənzil-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri uğurla davam etdirilir. Hazırda Əlahiddə Ümumqoşun Ordunun Şahbuz şəhərində yerləşən hərbi hissəsində bir əsgər yataqxanası əsaslı təmir edilir və hərbi şəhərcikdə isə yeni yaşayış binası tikilir.*



Güclü müdafiə qüdrətinə malik olan Naxçıvan Muxtar Respublikasında hərbi infrastrukturun müasirləşdirilməsi istiqamətində həyata keçirilmiş tədbirlər çərçivəsində ordu, birlik, birləşmə və hissələrdə əsgəri-məişət kompleksləri, təlim-tədris mərkəzləri, qərargah binaları və xəstəxanalar tikilib, sıra meydanı və idman şəhərcikləri salınıb.

Təmir-tikinti işlərinin davamı olaraq Əlahiddə Ümumqoşun Ordunun Şahbuz şəhərində yerləşən hərbi hissəsinin bir əsgəri-məişət kompleksində əsaslı təmir işləri görülür, digər iki əsgər yataqxanasında isə cari təmir işlərinin aparılması nəzərdə tutulur. Əsaslı təmir işlərinin aparıldığı əsgəri-məişət kompleksinin dam örtüyü yenilənib, hörgü-suvaq işləri davam etdirilir. Zirzəmi ilə birlikdə 4 mərtəbəli binada yataq yerləri, xidməti, məişət, silah və sinif otaqları şəxsi heyətin istifadəsində olacaq. Əsgəri-məişət kompleksinin keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilməsi nəzərdə tutulur. Binanın zirzəmisindən anbar və saxlanc kimi istifadə ediləcək.

Şahbuz şəhərindəki hərbi şəhərcikdə hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə zabit-gizir ailələri üçün yeni yaşayış binası inşa olunur.

44 mənzilli yaşayış binası zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olacaq. İki, üç və dörd otaqlı mənzillərin olacağı binada bütün kommunal-məişət şəraiti yaradılacaq, fərdi istilik sistemi qurulacaq, hər bir mənzil mebel dəstləri və digər ev əşyaları ilə təmin olunacaq. Binanın zirzəmisində isə müxtəlif təyinatlı mağazalar, anbarlar, tədbirlər zalı və digər xidmət sahələri fəaliyyət göstərəcək.

Göründüyü kimi, texniki-təhlükəsizlik qaydalarına əməl olunmaqla hərbi obyektlərdə aparılan təmir-tikinti işləri muxtar respublikada hərbi qulluqçuların xidməti şəraitinin müasirləşdirilməsinə və sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# İnformasiya təhlükəsizliyi və dövlət maraqları

*Dövlətin və millətin mövcudluğu üçün zəruri olan təhlükəsizlik və milli maraqlar bir-birini tamamlayan əsas faktorlardır. Belə ki, təhlükəsizlik mühiti olmadan milli maraqlar, milli maraqlar təmin edilmədən isə təhlükəsizlik şəraiti yaradıla bilməz. Təhlükəsizlik, bu baxımdan informasiya təhlükəsizliyi ölkənin, millətin, xalqın və nəhayət, hər bir vətəndaşın riayət etməli olduğu yaşam tərzi kimi sabitliyin qarantıdır.*

Bu gün cəmiyyət informasiyalaşdıqca, insanlar informasiyadan daha artıq dərəcədə asılı vəziyyətə düşürlər. İnformasiya təhlükəsizliyinin təmin olunmaması isə cəmiyyət üçün böyük fəsadlar törədə bilər. Hər hansı ölkədə informasiya təhlükəsizliyinin prioritetləri dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarının balanslı nisbəti əsasında müəyyənləşir. Ölkədəki siyasi, hərbi, fövqəladə və s. vəziyyətlərdən asılı olaraq bu nisbət dəyişə bilər.

İnformasiya təhlükəsizliyinin təmin edilməsi sistematik, kompleks yanaşma tələb edir. Ölkəmizdə bu sahədə əlaqədar qurumlar tərəfindən konseptual, təşkilati, elmi-metodoloji, qanunvericilik, maddi-texniki əsasların yaradılması üzrə işlər aparılmaqdadır. Buna baxmayaraq cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması üçün zəruri olan tədbirlər kimi beynəlxalq hüquqi mexanizmlərin ciddi araşdırılması, milli normativ-hüquqi bazanın formalaşdırılması, təhlükəsizlik siyasətinin işlənilməsi və reallaşdırılması, xüsusi texnologiyaların tətbiqi, ölkə və korporativ səviyyədə informasiya təhlükəsizliyinin monitorinqi və menecmentinin aparılması, kadr hazırlığı, əhalinin maarifləndirilməsi və vətəndaşlarda informasiya mədəniyyətinin tərkib hissəsi kimi informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması məsələləri aktuallıq kəsb edir. Bu mənada milli, iqtisadi, hərbi siyasətin əsas məqsədi sabitliyin təmin olunması, təhlükəsizlik mühitinin yaradılmasıdır.

Bu gün dünyada informasiya texnologiyalarının köməyi ilə bir çox hərbi və digər sahələrdə münaqişələr yaratma taktikası dəyişir. İnformasiya və dezinformasiyanın kimin nəzarətində olması mühüm rol oynayır. Bəzən dezinformasiya təhlükəli bir silaha da çevrilir. Mövcud "İnformasiya təhlükəsizliyi", "İnformasiya müharibəsi" terminləri hərbi sahədə daha çox istifadə edilsə də, kütləvi informasiya vasitələrinin və kommunikasiya texnologiyalarının inkişafı ilə bir qədər başqa əhəmiyyət daşımağa başlayır.

Müasir dövrdə əsas təsir obyekti olaraq resurslar arasında informasiya mübadiləsinin, milli resursların məxfiliyinin qorunub saxlanılması tələb olunur. Bu mənada Azərbaycanda da informasiya təhlükəsizliyinə xüsusi diqqət yetirilir. Artıq ölkəmizdə dövlət və qeyri-dövlət sektorlarında informasiya təhlükəsizliyinin təmin olunması üçün hüquqi-normativ aktlar hazırlanıb və müəyyən addımlar atılıb. Belə ki, həm kiber hücumların qarşısının alınması ilə bağlı Cinayət Məcəlləsinin maddələri təkmilləşdirilib, həm də dövlət sirlərinin qorunması ilə bağlı qanunlara dəyişikliklər edilib.

Müstəqilliyinə nail olduqdan sonra Azərbaycanın milli təhlükəsizliyinin əsas problemlərindən biri ölkənin vahid informasiya siyasətinin formalaşdırılması və təhlükəsizliyinin təminatı, milli informasiya mühitinin yaradılması, qorunması və idarə edilməsi ilə bağlı olub. Hələ ölkəmizdə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanun 1998-ci il aprelin 3-də qəbul edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Fərman imzaladıqdan sonra ölkəmizdə milli informasiya təhlükəsizliyi üzrə mükəmməl strategiyanın yeni mərhələsi başladı.



Bu gün informasiya təhlükəsizliyinə təhdidlər çox ciddi mərhələyə adlayıb. Dünyanı narahat edən ən böyük problem - beynəlxalq terrorizm məhz informasiya təhlükəsizliyi siyasətindəki boşluqlar səbəbindən həyata keçirilir. Dövlətin, cəmiyyətin və vətəndaşların həyatında informasiyanın, informasiya resurslarının və texnologiyalarının rolunun artması informasiya təhlükəsizliyi məsələlərini ön plana çıxarır. Məsələnin kökündə internetin sürətli inkişafı, yeni veb texnologiyalar əsasında yaradılmış proqram təminatı sistemlərinin mühafizəsi dayanır. Bu məqsədlə 27 aprel 2018-ci il tarixdə Azərbaycanda informasiya təhlükəsizliyi üzrə yeni qurum yaradılıb. Azərbaycan Prezidenti İlham Əliyev "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Sərəncam imzalayıb. Komissiya Azərbaycanın informasiya təhlükəsizliyinə təhdidlərin qiymətləndirilməsini, o cümlədən belə təhdidlərin əsas mənbələri, istiqamətləri, formaları, vura biləcəyi zərər və təsirlər ilə bağlı müntəzəm təhlillər aparılmasını, təkliflərin hazırlanmasını, mümkün təhdidlərin qarşısının alınması sahəsində müvafiq dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsini, birgə tədbirlərin planlaşdırılmasını və həyata keçirilməsini təmin edir. Bundan başqa, komissiya ictimai əhəmiyyətli infrastruktur obyektlərinin informasiya sistemlərinə və ehtiyatlarına kiberhücumlar və fövqəladə kibertəhlükə hallarında əlaqələndirilmiş işin təşkili və birgə əks tədbirlərin həyata keçirilməsini, internet informasiya ehtiyatlarında Azərbaycan Respublikasının milli maraqları əleyhinə məqsədyönlü şəkildə yayılan saxta məlumatların mənbəyinin təxirə salınmadan müəyyən edilməsini və bu barədə müvafiq orqanların dərhal məlumatlandırılmasını, aidiyyəti dövlət orqanlarının kibertəhlükəsizliyinin təmin edilməsi, o cümlədən kibercinayətlərlə mübarizə sahəsində kadr və texniki potensialın gücləndirilməsi məqsədilə təkliflərin hazırlanmasını və zəruri tədbirlərin görülməsini təşkil edir.

Müharibə şəraitində yaşayan Azərbaycan üçün informasiya təhlükəsizliyi, dövlət sirri olan hərbi məlumatların yayılmaması ən vacib məsələlərdir və milli təhlükəsizliyə informasiyaların ciddi zərər yetirməməsi baxımından olduqca əhəmiyyətlidir. Bunun üçün informasiya təhlükəsizliyini qorumaq məqsədilə ictimai maarifləndirmə kampaniyasına da ehtiyac vardır. Bu yolda vətəndaş cəmiyyətinin üzərinə müxtəlif vəzifələr düşür.

Bu gün ölkəmizdə kütləvi informasiya vasitələri inkişaf etdikcə, internet daha çox vüsət aldıqca, məlumat azadlığı təmin olunduqca, informasiya təhlükəsizliyi məsələsi bir qədər ön plana çıxıb. Belə ki, yaşadığımız regionu, müharibə vəziyyətində olmağımızı nəzərə alaraq dövlət siyasətimizdə informasiya təhlükəsizliyinə xüsusi əhəmiyyət verilir. Dövlətin əsas vacib güc strukturlarından biri olan Müdafiə Nazirliyində isə informasiya təhlükəsizliyinin qorunmasına xüsusi diqqət yetirilir. Belə ki, Nazirliyin Mətbuat Xidməti kütləvi informasiya vasitələri ilə əlaqələrə mühüm yer verir və bu əməkdaşlıq onun fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Nazirlik daim ünsiyyətdə olduğu auditoriyalarla, dövlət qurumlarıyla, QHT-lərlə, vətəndaş cəmiyyətiylə, icmalarla və geniş ictimaiyyətlə sıx əlaqələri davam etdirir, ordu ilə bağlı məlumatların KİV-ə çatdırılmasında, ictimaiyyətlə bu qurum arasında ünsiyyət körpüsü yaradılmasında, "Açıq qapı" günlərində vətəndaşların hərbi hissələrlə tanışlığının təmin edilməsində, hərbi sirrin qorunması şərtilə fəaliyyətinin aşkarlıq, şəffaflıq prizmasından təbliğində mühüm rol oynayır. Bir sözlə, Nazirlik KİV-lə səmərəli əməkdaşlıq edir, milli təhlükəsizliyin qorunması məqsədilə materialları ənənəvi mediaya, müxtəlif qəzet və jurnallara, teleradio kanallarına, informasiya agentliklərinə, elektron qəzetlərə, xəbər portallarına göndərir və öz işini KİV-lə əməkdaşlıq şəraitində qurur.

Bu gün KİV və onun aparıcı qüvvəsi olan jurnalistlərin üzərinə xüsusilə böyük məsuliyyət düşür. Çünki onlar güclü təsirə malik olan söz sahibi, yaradıcı şəxslər və təbliğatçılardır. Buna görə də jurnalistlər onlara verilən bu imkandan sui-istifadə etməməli, qanunlar çərçivəsində fəaliyyət göstərməli, dövlətin konstitusion quruluşuna qarşı çıxmamalı, Vətəni sevməli, insanlara vətənpərvərlik hissləri aşılamalı, öz peşələrinə vicdanla yanaşmalı, ən vacibi hərbi informasiyanı cəmiyyətə ötürərkən informasiya təhlükəsizliyini qorumaq məqsədilə aidiyyəti dövlət qurumundan yararlanmalıdırlar. Onlar informasiya təhlükəsizliyinin cəmiyyətin mövcudluğunda, onun inkişafında, dövlətçiliyin saxlanılmasında mühüm rol oynadığını nəzərə alaraq milli maraqları qorumalı və dövlətimizin təhlükəsizliyinin təmin edilməsində yaxından iştirak etməlidirlər ki, Azərbaycanımızın müstəqilliyi daimi, dönməz və əbədi olsun.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda kəşfiyyatçılar arasında yarışlar keçirilib



Əlahiddə Ümumqoşun Orduda "Ən yaxşı kəşfiyyat taqım-qrup komandiri" və "Ən yaxşı kəşfiyyat qrupu" adı uğrunda yarışlar keçirilib.

Yarışın planına əsasən əvvəlcə sıra baxışı keçirilib və şəxsi heyətin təchizatı yoxlanılıb, iştirakçılara yarışın məqsədi və təhlükəsizlik qaydaları çatdırılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissə və təlim mərkəzlərində keçirilən yarışlarda komandirlərin və şəxsi heyətin nəzəri bilikləri, fiziki hazırlığı və praktiki vərdişləri yoxlanılıb.

Ərazidə maskalanma və hərəkət, gündüzləmə yerinin və mühafizənin təşkili, atıcı silahlardan praktiki atışlar yerinə yetirilib.



Sonda qaliblər Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıblar.

AZƏRBAYCAN ORDUSU

İctimai-siyasi hazırlıq

# “Vətənimin əsgəriyəm”

*Ordu sıralarında xidmət edənlərin döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji vəziyyəti də yüksək səviyyədə olmalıdır. Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsində ictimai-siyasi hazırlıq dərslərinin böyük əhəmiyyəti vardır. Məşğələlər zamanı Vətənin müdafiəçilərinə milli-mənəvi dəyərlərə sədaqət, dövlətə və dövlətçiliyə ehtiram aşılanır. Həmçinin əsgərlərimizə xalqımızın hərb tarixi, onun azadlığı uğrunda mübarizə aparan, adlarını tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazan oğul və qızlarımızın qəhrəmanlıqları barədə dolğun məlumat çatdırılır.*



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində xidmət edən əsgərlərimizlə tanışlığımız onların ictimai-siyasi hazırlıq məşğələsinə təsadüf etdi. Məşğələnin rəhbəri leytenant Peyman Əsədzadə şəxsi heyətə mövzunu çatdırır, dinləyicilərin suallarını cavablandırırdı. Məşğələ bitdikdən sonra öyrəndik ki, mənfur düşmənin törətdiyi vəhşilik Peyman Əsədzadənin də ailəsindən yan ötməyib. Zabitimizin əmisi Cocuq-Mərcanlı istiqamətində gedən ağır döyüşlərdə şəhid olub. Gənc yaşlarından Vətənə sevginin nə olduğunun şahidi olan Peymanın könlündə bir arzu cücərir - Vətənin müdafiəsində dayanan oğullarımızın sıralarına daxil olmaq. Ancaq o, anlayır ki, Vətənimizə sadəcə əldə silah tutan deyil, savadlı kadr lazımdır. Bu istək onu Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu edir. İndi leytenant Peyman Əsədzadə minlərlə oğullarımız kimi düşməndən qisasını alacağı günü səbirsizliklə gözləyir.

Gənc zabit ictimai-siyasi hazırlıq dərsinin vacibliyindən danışaraq dedi: - Vətənimizin, millətimizin tarixini dərindən bilmək hər birimizin mənəvi borcudur. Azadlığımızın nəyin bahasına əldə olunduğunu bilməli, bunun üçün Vətənin mənafeyini özündən üstün tutan qəhrəmanlarımızı tanımalıyıq. Onların keçdiyi döyüş yolu bu gün ordu sıralarında xidmət edənlər üçün örnəkdir. Bu gün Vətənimizin azadlığını qorumaq, ordumuzun sıralarında xidmət edənləri hərtərəfli formalaşdırmaq biz komandirlərə tapşırılıb. Biz də çalışırıq ki, üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gələk. Çünki hər birimizin bir amalı var - Ali Baş Komandanımızın əmri ilə işğal altında olan torpaqlarımızı düşməndən azad etmək.

Moskva şəhərində təhsil alan əsgər Elşən Məhərrəmzadə bildirdi ki, xalqımız özünəxas milli-mənəvi dəyərləri ilə digər xalqlardan seçilir. "İlk olaraq onu vurğulamaq istəyirəm ki, biz Vətənə bağlılığımız, sevgimiz ilə fərqlənirik. Vətən bizim üçün müqəddəsdir. Bir dəfə başqa millətdən olan tələbə yoldaşımın "harada yaxşı yaşayırsansa, ora Vətəndir" fikri aramızda mübahisəyə səbəb olmuşdu. Çünki biz dəyərlərimizə hörmət əsasında belə tərbiyə olunmuşuq. Hər bir azərbaycanlı övladına Vətənin bütün müqəddəs dəyərlərdən öndə gəldiyini öyrədir. İnstitutda təhsil alan hər bir azərbaycanlı Vətənə ixtisaslaşmış kadr kimi dönmək istəyirdi. Çünki ölkəmizin inkişafı, onun dünya arenasında güclülər sırasında olması vətəndaşlarının savadlı olmasından asılıdır. Çox sevinirəm ki, təhsilimi uğurla başa vurdum və bu gün Vətənimin əsgəriyəm. Ancaq ən böyük sevincim torpaqlarımızı azad etdiyimiz gün olacaq."

- Əsgəri xidmət məni qorxmaz, mərd, cəsur döyüşçü kimi yetişdirib, - deyə əsgər Məhəmməd Hacıyev söhbətə başladı. - Komandirlərimizin sayəsində günün nizam qaydasına uyğun olaraq döyüş, atəş, mühəndis hazırlıqlarımızı artırırıq. Bununla yanaşı, asudə vaxtımız da səmərəli keçir. Bir sözlə, hərtərəfli diqqət və qayğı ilə əhatə olunmuşuq. Düşmənlə təmas xəttində xidmət etməyimizə baxmayaraq, sosial-məişət şəraitimiz yüksəkdir. Bizim üzərimizə yalnız şərəflə xidmət etmək düşür.

Əsgər yoldaşlarının fikirlərini tamamlayan əsgər Mirfədan Mirişli bildirdi ki, bu gün Azərbaycan əsgəri doğma torpaqlarımızı hansı yolla olursa-olsun, azad etməyə hazırdır. "Böyük Qələbənin sevincini xalqımıza yaşadacağıq. Aprel döyüşləri bu müqəddəs yolun başlanğıcıdır. Həmin gün Vətənin igid oğulları qarşısında heç bir əngəl tanımayacaq. Döyüş meydanında düşməni darmadağın edəcəyik!"

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu"**




## 28 May - Respublika Günü münasibətilə “Zəfər marşı” adlı yeni videoçarx hazırlanıb

Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin genişmiqyaslı əməliyyat-taktiki təlimlər ərəfəsində təqdim etdiyi "Qələbəyə gedən yollar" videoçarxı sosial şəbəkə istifadəçiləri tərəfindən maraqla izlənilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Mərkəz 28 May - Respublika Günü münasibətilə "Zəfər marşı" adlı yeni layihəni təqdim edib. Marşın sözləri Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaniyə, musiqisi bəstəkar Azad Zahidə, ifası isə Hezi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi rəisinin müavini, Əməkdar artist, Prezident mükafatçısı mayor Cahangir Qurbanova aiddir.

## “28 il Qarabağsız” mövzusunda onlayn konfrans keçirilib

Parisdə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 102-ci ildönümü münasibətilə Lionda qeydiyyatdan keçmiş Azərbaycan-Fransa Dialoq Assosiasiyasının (ADFA) təşkilatçılığı ilə "28 il Qarabağsız" adlı vebinar (onlayn konfrans) təşkil olunub.

AZƏRTAC xəbər verir ki, onlayn konfransa ADFA-nın prezidenti Günel Səfərova moderatorluq edib.

Konfransda Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, deputat Tural Gəncəliyev, tarix elmləri üzrə doktor, tədqiqatçı Maksim Qoen və fransız rejissor Maksim Marduxayev iştirak ediblər.

Tibb xidməti

# Sağlam əsgər güclü müdafiəçidir!



Cəbhə bölgəsində düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində olarkən hərbi hissənin tibb məntəqəsinə də baş çəkdik. Burada olan müasir şərait, səliqə-sahman, gigiyena qaydalarının tələblərinə tam əməl olunmasını görmək bizdə xoş hisslər yaratdı. Feldşer baş gizir Mais Ağakərimov söhbət zamanı qeyd etdi ki, onların bir tibb işçisi kimi vəzifə borcu şəxsi heyətin sağlamlığının qeydinə qalmaqdır.

- Hər hansı şikayəti olan əsgər dərhal qeydiyyata alınıb gecikdirilmədən müayinəyə yönləndirilir. Əsgərlər ambulator qaydada müayinə olunduqdan sonra xidmətlərini davam etdirmək üçün bölmələrinə göndərilir. Problem olduqda müraciət etmiş əsgərlər nəzaratdə saxlanılırlar. Əsgərlərin sağlamlığını qorumaq bizim vəzifə borcumuzdur. Vəzifə borcumuzu layiqincə yerinə yetirmək üçün daima əlimizdən gələni edirik. Vətənin keşiyində duranların sağlam olması vacib amillərdən biridir. Sağlam əsgər, sağlam müdafiəçidir. Azərbaycan Ordusu inamlı addımlarla irəliyə doğru gedir. Biz hər zaman Prezidentimiz cənab İlham Əliyevin orduya olan xüsusi qayğısını hiss edirik. Bu da bizim məsuliyyətimizi artırır və gələcəkdə daha böyük nailiyyətlər əldə etmək üçün ruhlandırır.

Baş gizir söhbət zamanı onu da vurğuladı ki, işimiz təkcə xəstələri müalicə etmək deyil, həm də xəstəliklərin qarşısını profilaktik tədbirlər ilə almaqdır. Bu gün dünyada yayılmaqda olan koronavirus pandemiyasının ordumuza daxil ola bilməməsi üçün bütün təxirəsalınmaz profilaktik tədbirlər görülür. Məntəqədə və bölmələrdə lazımi dezinfeksiya işləri həyata keçirilir, hərbi qulluqçulara bu virusa yoluxmamaq üçün görüləcək tədbirlər izah olunur.

Məntəqədə olan əsgərlər də burada yaradılan şəraitdən son dərəcə məmnun olduqlarını, bütün tibb işçilərinin onlara qayğı ilə yanaşdıqlarını bildirdilər. Əsgər Əyyub Əlizadə tibb məntəqəsinə ilk dəfə müraciət etdiyini bildirdi. O, qeyd etdi ki, həkimlər və tibbi personal müalicə və müayinə üçün müraciət edənlərə həmişə diqqət və qayğı ilə yanaşır, lazımi köməklik göstərirlər. "Ön xətdə xidmət etmək şərəflidir. Bizlər gündəlik döyüş növbətçiliyinə çıxır, torpaqlarımızı düşməndən müdafiə edirik. Tibb məntəqəsində mənə hər cür tibbi yardım göstərildi. Ümid edirəm ki, tez bir zamanda sağalıb xidmətimə davam edəcəyəm".

**Leytenant
Oruc MUSTAFAYEV,
"Azərbaycan Ordusu"**

*Ovqat*

# O gün tarixi gün olacaq



*Bir bayatımızın bir misrası düşüncələrimdə şahlıq etməkdədi: Gün var min aya dəyər. Yəni, gün dövlətçiliklə, xalqın taleyiylə bağlıdırsa, yəni, milli-xəlqi ruhun "boyuna biçilmiş" gündürsə, dövlətçilik anlamında tarixin axarını müəyyənləşdirən gündürsə, əlbəttə ki, mahiyyətinə görə min (bu rəqəm şərti deyilib, şərti deyilir) ayın mahiyyətini üstələyir. 1918-ci ilin 28 may günü, 1991-ci ilin 17 noyabr günü belə anılır, belə yaşadılır...*

Azərbaycanın dövlətçilik tarixi min illərin o üzüylə səsləşir. Bu baxımdan 1918-ci ilin 28 may gününü dövlətçiliyin bərpası günü kimi anırıq. 1918-ci ilin 28 may günündən sonra tarix bir daha əmin oldu ki, "Qoca Şərqin qapısı" (S.Vurğun) qəlbitəmizlərin üzünə açıqdı. Bu qapı səmimiyyət qapısıdı, xoş niyyət, xoş ünsiyyət, mədəniyyət qapısıdı - Cümhuriyyət qapısıdı...

Azərbaycan Demokratik Respublikasının yaranması xalqın azadlıq, müstəqillik mübarizəsinin məntiqi nəticəsiydi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev deyirdi: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

Azərbaycan qürurla, qətiyyətlə, zaman anlamında tarixin dünənlərinə dirsəklənərək "Mən də varam!" dedi. Siyasi müstəvidə Cümhuriyyətin boyu aydınlığıyla göründə dünyanın bəşəri dövlətləri 28 mayı bəşərilik tarixində uğurlu gün bildi - Azərbaycan Demokratik Cümhuriyyətini rəsmən tanıdı...

28 may, 28 aprel. Bu iki tarixi müəyyənləşdirən 28 rəqəmi təsadüfüydümü, təsadüfün tarixə ironiyasıydımı?..

Bolşevizm ideologiyalı, ilhaq niyyətli Rusiyanın Azərbaycanın yeraltı, yerüstü sərvətlərinə tamahı Şərqdə ilk demokratik cümhuriyyətin yaşamını tükəndirdi...

Milli-xəlqi ruh 71 il ilhaqla mübarizə apardı. İmperiyanın siyasi qadağaları xalqın mübarizə əzminin üstündə yellər əsdirsə də onu üşüdə bilmədi. Sərt repressiyalar, Sibir xofu, "Xalq!" deyən, "Millət!" deyən, "Dövlət" deyən dərin təfəkkürlər həbs edildi, sürgünə göndərildi, güllələndi. Ancaq "yel qayadan heç nə apara bilmədi" - 1920-ci ilin 28 aprelindən başlayan gizlin milli azadlıq mübarizəsini aşkar mübarizə əvəzlədi, bu mübarizəni təkcə təfəkkürlər deyil, xalq aparırdı. Bir atalar sözündə deyildiyi kimi, el bir oldu, zərbi (zərbəsi) - xalqın əzmi, iradəsi kərəni (ilhaq zəncirini) sındırdı. "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə, bunun əsasında qəbul edilən dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı xalqın müstəqillik mübarizəsinin labüd nəticəsiydi. Dünya Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında qeyd edildiyi kimi, Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi tanıdı. Dövlət müstəqilliyi bərpa olunan Azərbaycan 71 ildən sonra yenə "Mən varam!" dedi və dünya bu qətiyyətin dönməzliyindən duydu və əmin oldu ki, bu varolma əbədidir. Azərbaycanın dövlət bayrağı bir daha ucalıqlardan enməyəcək.

Gədəbəydə, Alagöllərdə əsgərlərlə kəlmələşirdik. Söz sözü çəkmişdi. Müstəqillikdən də danışmışdıq. Əsgərlərdən biri qürurla demişdi ki, o mübarizədə bizim atalarımız da iştirak edib. Biz onların mübarizəsinin nəticəsi olan azadlığımızı, müstəqilliyimizi qoruyuruq. Əsgər kimi qoruyuruq. Döyüş növbətçiliyi həm torpaqlarımızı qorumaqdı, həm də müstəqilliyimizi. Düşmən bilir ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, həm də ərazi bütövlüyüylə əbədidir. Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcəyik. Onda adaşım əsgər yoldaşının sözünə qüvvət olaraq demişdi ki, mülki həyatda da qoruyacağıq. Əsgər qətiyyətiylə, əsl vətəndaş dönməzliyiylə. Bu gözəl, bu yaşarı kəlamı Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığının mahiyyəti bilmişdim. Sonralar başqa bölgədə, başqa hərbi hissədə, başqa səngərlərdə bu düşüncələrin eynini gördüm. Onda dəniz səviyyəsindən 3000 metr ucalıqda səslənən bu dəyərli kəlmələr ürəyimi telləndirmişdi, ürəyim o kəlmələri hər xatırlayanda tellənir. Alagöllər relyef ucalığıydı. "Mən azərbaycanlıyam!" deyənlərin hamısı Alagöllərdə xidmət edən əsgərlər kimi Azərbaycan Respublikasının dövlət bayrağının mənəviyyat ucalığında dalğalanmasının cəfakeşidi, şübhəsiz...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyanın "Natsionalnaya oborona" jurnalına müsahibəsində dediyi "Erməni qoşunları işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxmalıdır" fikri ötən ilin oktyabrında Rusiya Federasiyasının Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasındakı çıxışında dediyi "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatının davamıdır. Bu bəyanat da, müsahibə də sübut etdi ki, Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcək. Həmin günə Böyük Qələbə günü deyəcəyik. O gün tarixi gün olacaq. 9 may kimi, 18 oktyabr kimi həmin günü də həmişə böyük təntənəylə, ruhumuzun qələbə günü kimi qeyd edəcəyik. Təkcə Azərbaycan adlı məmləkətdə deyil, Azərbaycana sayğısı, bəşəriliyə sədaqəti olan dövlətlərdə də...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçular arasında bir gecədə iki ölüm hadisəsi baş verdiyini Ermənistan rəhbərliyi ictimaiyyətdən gizlədir.

Ermənistan mətbuatında aprelin 3-ü gecə saatlarında naməlum şəraitdə 2000-ci il təvəllüdlü hərbi qulluqçu Garegin Babekyanın öldüyü barədə məlumat verildiyi halda, ikinci ölüm hadisəsi israrla ictimaiyyətdən gizlədilir.

Aprelin 3-də gecə saatlarında döyüş postunda müşahidəçi vəzifəsini icra edən başqa bir düşmən əsgərinin də meyiti tapılıb. Səngərdə cəsədi tapılan 2-ci motoatıcı alayın əsgəri Arsen Petrosyanın tabeliyində olan silahdan atəş açaraq intihar etdiyi iddia edilir. Lakin əsgərlər arasında hərbi qulluqçu A.Petrosyanın münaqişə zəminində digər əsgər tərəfindən öldürüldüyü danışılır.

Komandanlıq əsgər A.Petrosyanın valideynləri ilə şikayət etməmələri barədə razılığa gəlib. Hadisə barədə rəsmi məlumat verilməsə də, hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində müxtəlif səbəblərdən baş verən cinayət hadisələrinin sayı artmaqda davam edir.

Bu günlərdə düşmən ordusunun işğal etdiyi Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən bölmələrindən birinin hərbi qulluqçusu silah-sursat satarkən yaxalanıb. Araşdırma zamanı məlum olub ki, o, mütəmadi olaraq hərbi hissəyə məxsus əmlakı mülki şəxslərə satıb. Hərbi qulluqçunun adı, hələlik, gizli saxlanılsa da, istintaq işi davam edir. Müstəntiqlər belə qənaətə gəliblər ki, o, tək başına belə iş edə bilməzdi. Onun başqa kimlərlə əlbir olduğu, yalnız ovçulara və çobanlara silah-sursat satdığı, yaxud kriminal qruplarla da əlaqələrinin olub-olmadığı araşdırılır.

Hələlik, məlum olan odur ki, erməni hərbçisinin satmaq üçün oğurlayıb gizlətdiyi "XV954" seriya nömrəli RPQ-7 qumbaraatanı təsadüf nəticəsində çoban tapmışdır.

Faktla bağlı araşdırmalar davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəminində baş verən növbəti cinayət faktı ortaya çıxıb.

Hərbi hissədə baş verən dava nəticəsində yüngül zədə alan 4 hərbi qulluqçu hissənin tibb məntəqəsində həkim tərəfindən müayinə olunub. Müxtəlif dərəcəli ağır bədən xəsarətləri alan iki əsgər isə Mardakertdəki hərbi hospitala yerləşdirilib.

Hadisə ilə bağlı istintaqı aparan Madagiz hərbi polisinin baş müstəntiqi Qurqen Qalstyan hərbi hospitala yerləşdirilən Sultanyanın davanın səbəbkarı kimi cinayət məsuliyyətinə cəlb edilməsinə qərar verib. Dava zamanı daha çox xəsarət alan əsgər Solkaryanın adı isə cinayət işində zərərçəkənlərdən biri kimi keçir.

Düşmən ordusunun hərbi hissələrində yayılmış koronavirus halları istintaqın uzanmasına səbəb olur. İctimaiyyətə rəsmi məlumat verilməsə də, faktla bağlı araşdırma başlayıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəminində, eləcə də fiziki və mənəvi təzyiqlər səbəbindən daha bir cinayət hadisəsi baş verib.

İşğalçı ordunun Madagiz yaşayış məntəqəsindəki bölmələrdən birində xidmət edən hərbi qulluqçu Georgi Xalatyan və rabitə manqasının komandiri çavuş Artur Hakverdiyan arasında dava baş verib. Nəticədə müxtəlif bədən xəsarətləri alan hər iki hərbi qulluqçu tibb məntəqəsinə yerləşdirilib.

Faktı ört-basdır etmək üçün komandanlıq hər iki hərbi qulluqçunu şikayət ərizəsi yazmağa məcbur edib. Hərbi qulluqçuların yaxınlarının dediyinə görə əsgərlər üz nahiyələrindən ciddi xəsarətlər alıblar.

Məlumat hüquq mühafizə orqanlarına verilmədiyindən cinayət işi açılmayıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# "Xəzri" avtomat silahı



"Xəzri" avtomat silahı yerli hərbi sənayemizin istehsalıdır. Azərbaycan mühəndisləri tərəfindən hazırlanan və "Xəzri" adı verilən silah AK-74M avtomat silahının bazası əsasında təkmilləşdirilmiş versiyasıdır. Rusiyadan lisenziyası alınaraq 2011-ci ildən Azərbaycanda istehsal edilir.

"Xəzri" avtomat silahı AK-74M silahından bəzi xüsusiyyətlərinə görə fərqlənir. Öz analoqundan fərqli olaraq silahda 40 mm-lik lüləaltı qumbaraatan, gecəgörmə cihazı, optik nişangahlar, lazerli tuşlama və işıqlandırma sistemləri də quraşdırılıb.

Silahın bəzi hissələrinin hazırlanmasında müasir materiallardan istifadə edilib. Qundaq, xəzinə, lülə yatağı və tapança dəstəyi plastikdən hazırlanıb. Silah yüksək zərbələr və xarici təsirlərə qarşı da davamlıdır. Qoruyucu örtük boyalarından istifadə olunması silahın metal hissələrini yüksək korroziyadan qoruyur.

"Xəzri" avtomatının işləmə prinsipi sələfindən fərqlənmir. Belə ki, atəş zamanı əmələ gələn barıt qazlarının enerjisinin istifadəsinə əsaslanır.

Silahın boş çəkisi 3.6 kq, dolu xəzinə və süngü-bıçaqla 4.1 kq-dır. Uzunluğu - qundaq açıq halda 943



mm, qatlanan halda isə 705 mm, lülənin uzunluğu isə 415 mm-dir. Avtomat silahda 5,45x39 mm-lik patronlardan istifadə olunur. Maqazini qutuvari və 30 patron həcmindədir. Atəş tezliyi 100 mərmi-dəq, atəş məsafəsi 1000 m, effektiv atəş məsafəsi 350 metrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Fiziki hazırlıq*

# İdman saatlarının səmərəli təşkili



Günün nizam qaydasının ayrılmaz və önəmli hissələrindən olan fiziki hazırlıq məşğələsinin səmərəli təşkilinin "N" hərbi hissəsində də şahidi olduq. İlk olaraq hərbi hissənin müasir idman şəhərciyi diqqətimizi çəkdi. Müxtəlif idman alətləri ilə təchiz olunan şəhərciyin geniş ərazisini, səliqəli futbol və voleybol meydançalarını izləmək insanda idmana həvəs yaradır. İdman edən əsgərlərin çevik hərəkətlərini izlədikcə zövq alırsan. Hər biri idmançı görkəminə malik, güclü, zirək və çəlddir. Dərs bitdikdən sonra onlarla həmsöhbət oluruq. İlk olaraq məşğələ rəhbəri zabit Ramil Siraclı danışdı. "Şəxsi heyət hər gün təyin olunan vaxtda, müəyyən edilən qaydada idman hərəkətləri ilə nə qədər çox məşğul olsalar, o qədər fiziki cəhətdən möhkəm, güclü və sağlam olarlar. Fiziki hazırlıq zamanı əldə edilən güc döyüş qabiliyyətinə də müsbət təsir edir. Əsgərlərimizin fiziki hazırlığı yüksəkdir. İdman normativlərini bacarıqla yerinə yetirirlər. Hər biri yaxşı bilir ki, torpaqlarımızı işğaldan azad etmək üçün hər an döyüş əmri gözləyirik. Döyüş meydanında qələbə qazanmaq üçün yüksək fiziki hazırlığa malik olmalıyıq. Güclü və möhkəm olmalıyıq ki, düşməni hər şəraitdə məhv edə bilək. Ona görə də hər biri fiziki hazırlıq dərslərinə xüsusi diqqət göstərir, idman alətlərində həvəslə məşq edir."

Əsgər Elcan Kazımov bildirdi ki, mütəmadi olaraq idmanla məşğul olur, fiziki hazırlığını artırmağa daim səy göstərir. "Cüdo idman növü ilə məşğul olmuşam. İdman bazamın xidmətimin uğurlu təşkilində böyük köməyi olub. İdman saatlarında fiziki göstəricilərimizi artırırıq. Yaxşı bilirik ki, qarşımızda duran ən birinci vəzifə - torpaqlarımızın işğaldan azad olunmasıdır. Bunun üçün də Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazırıq. Həm döyüş hazırlığımız, həm də fiziki gücümüz yüksəkdir. Komandirlərimizin istənilən tapşırığını cəld və ən tez zamanda yerinə yetirməyə qadirik."

Dərsin gedişi zamanı yüksək bacarıq nümayiş etdirən əsgərlərdən daha birini tanıyırıq. Bu əsgər Kənan Nəsibovdur. İdmanın sərbəst güləş növü ilə məşğul olan Kənan ixtisasca idman müəllimidir. Əsgər idmanın nəinki fizioloji, eyni zamanda, psixoloji faydalarından da söz açdı. "İdmanla uşaqlıqdan məşğul olmaq lazımdır. Bu həm fizioloji inkişafımız, həm də psixoloji durumumuz üçün vacibdir. İdman fiziki gücümüzü artırdığı kimi, insana mənəvi cəhətdən də güclü olmağı öyrədir. İnsanda özgüvəni artırır, iradəni möhkəmləndirir, həmçinin onu pis vərdişlərdən də uzaqlaşdırır. Hərbi xidmətdə idman əsas şərtdir. Ona görə də hər zaman fiziki hazırlıqlı olmalıyıq ki, verilən tapşırıqların öhdəsindən bacarıqla gələk. Bunun üçün bölməmizdə hər cür şərait yaradılıb. İdmanla məşğul olmalıyıq ki, sağlam və güclü əsgərlər olaq."



Əsgər Azər Abbaszadə isə idman vərdişlərinin hərbi xidmət zamanı formalaşdığını qeyd etdi. "Əsgəri xidmət bizə bir çox müsbət keyfiyyətlər aşılayır. Bunlardan biri də idman vərdişlərinə yiyələnməkdir. Hərbi xidmətdən əvvəl idmanla az məşğul olurdum. Xidmətimin ilk günlərində idman dərslərində çətinlik çəkirdim. Dayaqdan dartınma hərəkətini demək olar ki, bacarmırdım. Komandirlərimin və əsgər yoldaşlarımın dəstəyi ilə hər gün idmanla ciddi məşğul olmağa başladım. Burada elə bir mühit var ki, ən tənbəl adam belə idmana həvəslənir. Artıq bir ildən çoxdur xidmət edirəm. Fiziki hazırlığımı kifayət qədər artırmışam. Bütün normativləri yerinə yetirməyi bacarıram. Bu da özümə inamı, mənəvi-psixoloji hazırlığımı daha da artırır. Artıq mən əminliklə deyə bilirəm ki, istənilən döyüş tapşırığını yerinə yetirə bilərəm".

İnsanların mənəvi və fiziki sağlamlığında mühüm rol oynayan idmana hər sahədə böyük həvəs və maraq olduğu kimi ordumuzda da bunun bir daha şahidi oluruq. Vətənimizin müdafiəsində dayanan gənclərimizin fiziki cəhətdən sağlam və güclü olduqlarını görürük. Müşahidə etdiklərimiz də Azərbaycan Ordusunda şəxsi heyətin hərtərəfli inkişafı üçün hər cür şərait yaradıldığının bariz nümunəsidir.

**Baş leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# "Hər cür şərait yaradılıb"



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində əsgərlər üçün yaradılmış məişət şəraiti ilə tanış olduq. Kapitan Vahid Rzayev ordumuzun sosial-məişət şəraitinin inkşafından söhbət açaraq bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin orduya olan diqqət və qayğısı bütün hərbi hissələrdə öz əksini tapıb. "Təsadüfi deyil ki, ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və texnikası var. Bütün bunlarla yanaşı, hərbçilərin sosial-məişət şəraiti də yüksək səviyyədədir. Xidmətin düzgün aparılması üçün bütün şərait yaradılıb. Yaradılan şərait əsgərlərin mənəvi-psixoloji vəziyyətinə öz müsbət təsirini göstərir. Müasir və güclü ordumuzun son dövrlərdə qazandığı qələbələr aydın şəkildə göstərir ki, Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmri ilə istənilən an torpaqlarımızı işğaldan azad etməyə qadirdir."

Əsgər yataqxanasında səliqə-sahman və təmizlik göz oxşayır. İkimərtəbəli müasir yataq dəstləri, təmiz və ağappaq mələfələr, isti yun adyallar, əl-üz dəsmalları əsgərlərimiz üçün yaradılan diqqət və qayğıdan xəbər verir. Əsgərlər Şahalı Məhərrəmov və Şənlik Əkbərov yataqxananın səliqə-sahmanı ilə məşğul olurdular. "Burada bizim üçün hər cür şərait yaradılıb. Rahatlığımız üçün yataqxanamız bizə lazım olan hər cür ləvazimatla təchiz olunub. Bizim öhdəmizə isə sadəcə bir vəzifə düşür - Vətəni qorumaq və ona layiqli xidmət etmək", - deyə əsgər Şahalı Məhərrəmov bildirdi.

Əsgər yoldaşının fikrinə dəstək olaraq Şənlik Əkbərov da yaradılan şəraitdən məmnunluqla danışdı: "Güclü və müasir Azərbaycan Ordusunun əsgəri olduğum üçün qürur duyuram. Fəxr edirəm ki, ön xətdə xidmət edirəm. Bizim üçün çox gözəl şərait yaradılıb. Komandirlərimiz də hər zaman bizə diqqət və qayğı ilə yanaşırlar. Düşünürəm ki, bizim bircə vəzifəmiz var, o da Vətəni düşməndən qorumaqdır. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün digər əsgər yoldaşlarım kimi daima öz üzərimdə çalışır, əlimdən gələni əsirgəmirəm."

Hərbi hissələrə hər səfərimizdə ölkə başçısının, ordu rəhbərliyinin diqqət və qayğısı nəticəsində əsgərlərin məişət şəraitinin tamamilə yaxşılaşdırıldığının, şəxsi heyətin sosial təminatının yüksək səviyyəyə qaldırıldığının, əsgərlərin ərzaq və geyimlə tam şəkildə təmin olunduğunun şahidi oluruq. Yaradılan belə yüksək şərait isə Vətənin müdafiəsində dayanan əsgərlərə sağlam mənəvi-psixoloji ruh aşılayaraq, onların qələbə əzmini daha da artırır. Belə şəraitdə xidmət edən gənclərimizi yalnız bir amal birləşdirir: düşmən üzərində qələbə qazanaraq, torpaqlarımızı işğaldan azad etmək! İnanırıq ki, əsgərlərimiz amallarına çatacaqlar.

**Leytenant
Oruc MUSTAFAYEV,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyə ordusunun hərbçisi Suriyada həlak olub



Türkiyə Silahlı Qüvvələrinin Suriyanın İdlib bölgəsində patrul xidməti həyata keçirən konvoyunun keçdiyi yolda partlayış baş verib.

Nəticədə Türkiyə hərbçilərindən biri şəhid olub. Hələlik partlayışın səbəbi məlum deyil.

### Moskvada Qələbə Paradı iyunun 24-də keçiriləcək



Moskvada Qələbə Paradı iyunun 24-də keçiriləcək.

Bu barədə Rusiya Prezidenti Vladimir Putin Müdafiə naziri Sergey Şoyqu ilə keçirdiyi videokonfransda məlumat verib.

Rusiya Prezidenti, həmçinin "Ölməz alay" marşını da iyulun 26-da keçirməyi təklif edib. V.Putin Moskvada və Rusiyanın digər şəhərlərində keçiriləcək Qələbə paradlarının iştirakçılarının sağlamlığı üçün hər hansı risklərin istisna edilməsi barədə tapşırıq verib.

### Ukraynada yeni artilleriya gəmisini sınaqdan keçiriblər



Ukrayna Hərbi Hava Qüvvələrinin (HHQ) kiçikzirehli artilleriya gəmiləri dənizdə yeni gəmilərdən birinin texniki imkanlarını sınaqdan keçirməklə bir sıra tapşırıqlar yerinə yetiriblər. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

"Milli donanmanın kiçikzirehli artilleriya gəmiləri dənizdə bir sıra tapşırıqlar yerinə yetiriblər. Yeni gəmilərdən birinin texniki imkanlarının təcrübədə sınaqdan keçirilməsi təlimin əsas mahiyyətini təşkil edib. Bundan əlavə, düşmənin hücumuna qarşı avtomatik mühafizə sisteminin yoxlanması da donanma heyətinin yerinə yetirdiyi müxtəlif tapşırıqlar sırasında olub", - deyə məlumatda bildirilir.

Gəmilərin mürəkkəb müasir avadanlıqları obyekt şüalanmaya məruz qaldıqda ekipajı və gəminin gövdəsini qorumağa imkan verir. Bu sistem öz xüsusiyyətlərinə görə təyyarələrin qorunma sistemlərini xatırladır.

Eyni dərəcəli vacib və effektiv qorunma üsullarından biri də tüstüləmə sayılır. Döyüş meydançasındakı tanklar özlərini idarəolunan tank əleyhinə sistemlərin lazer hücumundan qorumaq üçün topa tüstü örtüklərindən istifadə edirlər. Gəmilər özləri də eyni formada nəhəng tüstü buludu yarada bilirlər. Bu, gəminin hədəfə alınmasını istisna etməkdən əlavə, onun dəqiq yerini bir müddət tam gizlətməyə imkan verir.

### İraqda 6 terrorçu həbs edilib



İraqın Əl-Anbar vilayətində keçirilən xüsusi əməliyyat nəticəsində 6 nəfər İŞİD terror qruplaşmasının üzvü həbs edilib.

Bu barədə İraqın Kəşfiyyat Nazirliyinin açıqlamasında bildirilib.

İŞİD terror təşkilatının İraq ərazisində dağıdılmasına baxmayaraq, bəzi vilayətlərdə qalan kiçik qruplar terror aksiyası törətməyə cəhd edirlər. Bu kimi halların qarşısını almaq məqsədilə Əl-Anbar vilayətində xüsusi əməliyyat keçirilib. Əməliyyat zamanı terrorçularla silahlı toqquşma baş verib və 6 nəfər terrorçu həbs edilib. Terrorçuların gizləndiyi yerlərdə aparılan axtarış nəticəsində silah-sursat və partladılması nəzərdə tutulan ərazilərin xəritəsi aşkar edilərək götürülüb.

**AZƏRTAC-ın
materialları əsasında**

Gizir Əliyev Faiq İsa oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 357
Nüsxə 3960